**Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər)"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar Vergilər Nazirliyi tərəfindən 2014-cü il ərzində görülmüş işlər barədə məlumat**

| Sıra №-si | Tədbirlərin adı | İcra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| 1. | Makroiqtisadi sabitlik və iqtisadi artım | | |
| 1.1. | Büdcə-vergi siyasəti | | |
| 1.1.2. | Vergilərin yığım səviyyəsinin artırılması | | |
| 1.1.2.1. | Vergi mədəniyyətinin artırılmasına yönəldilmiş maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | 2014-cü ildə vergi mədəniyyətinin artırılması məqsədilə vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 14 adda kiçik həcmli bukletlər, vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən məsuliyyət tədbirləri haqqında "Yaddaş" və Vergilər Nazirliyinin rəsmi internet səhifəsi barədə kitabçalar hazırlanaraq 117000 sayda (103400 Azərbaycan, 13600 İngilis dilində) nəşr etdirilərilməklə vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.<br>Qeyd edilən dövr ərzində "ITECA Caspian" MMC tərəfindən respublikada təşkil olunan müxtəlif yönümlü 8 sərgidə vergi təbliğatı işi təşkil edilmişdir. 2014-cü il ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az) daxil olan istifadəçilərin sayı 3633992, "Sual-cavab" rubrikasına daxil olan sualların sayı isə 1659 olmuşdur. Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində baş verən yeniliklər mütəmadi olaraq saytda yerləşdirilmişdir.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə əlaqədar vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamentini, onların hüquqi əsasları barədə dolğun məlumatı əks etdirən "Vergi yoxlamaları: əsaslar və prosedurlar" bölməsi yaradılmış və həmin bölmədə müvafiq sənədlər yerləşdirilmişdir.<br>Qeyd edilən Qanunun 12.1-ci maddəsinin tələbləri ilə əlaqədar, yəni yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah olunması tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlərin verilməsi məqsədilə vergi ödəyiciləri üçün aktual olan səyyar vergi yoxlaması və operativ nəzarət istiqamətləri (Audit sahəsi üzrə 6 istiqamət, Operativ nəzarət sahəsi üzrə isə 7 istiqamət) barədə müvafiq Bildiriş-məlumat formaları hazırlanaraq həmin bölmədə yerləşdirilmişdir. Eyni zamanda, "Facebook" və "Twitter" sosial şəbəkələrindəki Vergilər Nazirliyinin rəsmi | 2011-2015 |

| | | | |
|---|---|---|---|
| | | səhifələrində, “Youtube” video hostinq serverində və video.az saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir. Belə ki, nazirliyin “Facebook” sosial şəbəkəsindəki səhifəsində “FACE-Vizit” layihəsi davam etdirilmiş, tanınmış şəxslərlə, eləcə də nazirliyin rəhbər vəzifəli şəxsləri ilə video-müsahibələr hazırlanaraq onların səhifədə yerləşdirilməsi həyata keçirilmiş və vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatlandırılması məqsədilə nazirliyinin “Facebook” sosial şəbəkəsindəki səhifəsində “Onlayn müfəttiş” adlı layihə davam etdirilmişdir. Bundan əlavə “Siz, Görünmürsünüz”, “Özünü əvvəlcədən qoru - müqavilə bağla!”, “Nağdsız alış-verişə sən də qoşul! Sürətli keçid üçün nağdsız ödə”, “ASAN imza: innovativ xidmətlər - xoşbəxtliyinizin hər anı üçün”, “POS-terminal ilə ödəniş, ödənişin qaytarılması və “Z” hesabatının çıxarılmasının video təlimatı”, “Alış-veriş zamanı haqlarınızın qorunmasını istəyirsinizsə, çek tələb edin”, “Ən böyük dəyəriniz alıcılarınızdır! Onları düşünün!”, “Vergiləri ödəyək - həmvətənlərimizə nümunə, gözəl gələcəyə layiq olaq”, “Vergiləri ödə - inkişafa dəstək ol” adlı təbliğat xarakterli video çarxlar, “Universal Çağrı Mərkəzi layihəsi çərçivəsində keçirilən treninqlərlə bağlı sertifikatlar sahiblərinə təqdim olundu”, “Vergilər uşaqların gözü ilə” ənənəvi rəsm və inşa müsabiqəsi keçirilmişdir”, “Vergi ödəyicilərinə xidmət mərkəzlərinin 6 aylıq fəaliyyəti”, “Vergilər Nazirliyinin vəzifəli şəxslərinin 2013-cü ilin yekunları ilə bağlı media nümayəndələri ilə keçirilmiş mətbuat konfransı”, “Azərbaycanın vergi sistemi: reallıqlar və prespektivlər” mövzusunda III Vergi Forumunun plenar iclası keçirilmişdir” adlı süjetlər “Facebook” sosial şəbəkəsində yerləşdirilmişdir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az) daxil olan istifadəçilərin məlumatları tez və rahat tapması üçün “Onlayn bələdçi” xidməti istifadəyə verilmişdir. Bu xidmətin vasitəsilə internet səhifəsində məlumatların tapılmasında çətinlik çəkən istifadəçilərə canlı rejimdə müvafiq linkin təqdim edilməsi həyata keçirilir.<br>Reklam şirkətləri ilə razılaşmaqla müvafiq olaraq Bakı şəhəri və regionlarda yol kənarlarında “Əmək müqaviləsi ilə böyüyən imkanlar” və “İşə qəbul olunarkən əmək müqaviləsini tələb edin” mətnlərində sosial reklamlar yerləşdirilmişdir. 2014-cü il ərzində vergi orqanları tərəfindən təhsil müəssisələri ilə ümumilikdə 786 tədbir keçirilmişdir. Belə ki, “Vergi Dostları” şəbəkəsinin üzvləri ilə 144, metodiki kabinetlərdə 89, şagird və tələbələrlə 553 görüş keçirilmişdir. Azərbaycan Respublikasında vergi siyasəti, onun əsas istiqamətləri, vergi ödəyicilərinə göstərilən xidmətlər, “Vergi dostları” layihəsi ilə əlaqədar 2014-cü ilin iyun ayının 4-5-də 13 saylı Ərazi Vergilər İdarəsində, oktyabr ayının 21-23-də | |

| | | | |
|---|---|---|---|
| | | 3 saylı Ərazi Vergilər İdarəsində layihə iştirakçıları tərəfindən görülmüş işlər, problem və nəticələr mövzusunda dəyirmi masalar keçirilmişdir. Eyni zamanda, Vergilər Nazirliyinin nümayəndələri Zaqatala rayonunun Car kəndini, Balakən rayonunun Hənifə kəndini və Qax rayonun İlisu kəndini təmsil edən vergi dostlarının təşkil etdiyi “açıq dərslərdə” iştirak etmişlər. Vergilər Nazirliyinin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının dəstəyi ilə ənənəvi olaraq 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə "Vergilər uşaqların gözü ilə" rəsm və inşa müsabiqələri keçirilmişdir. Bununla yanaşı respublikanın regionlarında yerli vergi orqanları tərəfindən "Vergilər uşaqların gözü ilə" rəsm və inşa müsabiqələri keçirilmiş, qaliblər mükafatlandırılmış və eyni adlı jurnal hazırlanaraq 1500 sayda (1000 azərbaycan dilində, 500 ingilis dilində) nəşr etdirilmişdir.<br>Vergi mədəniyyətinin artırılması, vergi ödəyiciləri tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin, habelə vergi öhdəliklərinin vaxtında və düzgün yerinə yetirilməsinin təmin edilməsi məqsədilə keçirilmiş digər tədbirlərlə yanaşı vergi ödəyicilərinə ünvanlı xidmətlərin göstərilməsinə üstünlük verilərək 27031 vergi ödəyicisinə səyyar məlumatlandırma xidməti göstərilmişdir.<br>“POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair Tövsiyələr” hazırlanaraq 14.04.2014-cü il tarixdə yerli verg orqanlarına göndərilmişdir. Bu sahədə məlumatlandırma işinin aparılması məqsədi ilə 22493 vergi ödəyicisinin təsərrüfat subyektində səyyar xidmətlər göstərilmişdir. Vergi mədəniyyətinin artırılması ilə əlaqədar qeyd edilən dövr ərzində Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinin mesaj xidməti vasitəsilə 1548724 sayda qısa mesaj göndərilməklə vergi ödəyicilərinin məlumatlandırılması təmin edilmişdir. | |
| 1.1.4. | Aylıq gəlirlərin yaşayış minimumundan çox olmayan fiziki şəxslərin gəlir vergisindən azad edilməsi | “Azərbaycan Respublikasının Vergi Məcəllәsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli 509-IVQD nömrəli Qanununa əsasən Vergi Məcəlləsinin 102.1.6-cı maddəsində hər iki halda “minimum əmək haqqının” sözləri “əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun” sözləri ilə əvəz edilmiş, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2014-cü il tarixli 959-IVQD nömrəli Qanununa əsasən isə əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli məbləğində güzəşt tətbiq olunan əmək haqqının həddi artırılaraq 200 manatdan 250 manata çatdırılmışdır. Eyni zamanda, “Azərbaycan Respublikasında 2014-cü il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 22 noyabr 2013-cü il tarixli Qanununa əsasən 1 yanvar 2014-cü il tarixindən əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu 136 | 2011-2015 |

| | | | |
|---|---|---|---|
| | | manat məbləğində müəyyən edildiyindən gəlirin güzəşt tətbiq edilən hissəsi də bu məbləğə qədər artırılmışdır. | |
| 1.6. | Kənd təsərrüfatının inkişaf etdirilməsi | | |
| 1.6.13. | Kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştlərinin tətbiq siyasətinin davam etdirilməsi | Ölkədə kənd təsərrüfatı sektorunun inkişafına dəstək göstərilməsi, bu sahədə fəaliyyət göstərən sahibkarların maliyyə fəaliyyətinin yaxşılaşdırılması məqsədilə “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 16 may 2014-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) şəxslərin gəlir vergisi, mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi və sadələşdirilmiş vergi üzrə nəzərdə tutulan güzəştləri 2014-cü ilin 1 yanvar tarixindən etibarən daha 5 il müddətinə uzadılaraq bu güzəştlərlə bağlı olan müddəalar Vergi Məcəlləsinə daxil edilmiş və bununla bağlı ayrıca qanun ləğv edilmişdir. | 2011-2015 |
| 2. | Məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi | | |
| 2.1. | Məşğulluq siyasəti və əmək bazarının tənzimlənməsi | | |
| 2.1.3. | Əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi | | |
| 2.1.3.1 | Qeyri-formal əmək münasibətlərinin leqallaşdırılmasının gücləndirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi | Hesabat dövründə qeyri-formal əmək münasibətlərinin leqallaşdırılmasının gücləndirilməsi sahəsində operativ nəzarət strukturlarının fəaliyyəti daha da gücləndirilmiş, nəzarət işlərinin həyata keçirilməsi intensivləşdirilmiş və bu işlərin səmərəliliyi yüksəldilmişdir. 2014-cü ildə səyyar və operativ vergi yoxlamaları zamanı 16512 vergi ödəyicisində mövcud iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı operativ vergi nəzarəti tədbiri həyata keçirilmiş, 6386 vergi ödəyicisində qanun pozuntusu aşkar edilmişdir. Nəzarət işləri nəticəsində işəgötürənlər tərəfindən 7268 nəfər fiziki şəxsin əmək müqaviləsi (kontraktı) bağlanılmadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Bu qanun pozuntularına görə aidiyyəti şəxslər barəsində Vergi Məcəlləsinə müvafiq olaraq 7,2 milyon manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Hesabat dövründə operativ vergi nəzarəti tədbirləri ilə 68375 (vergi orqanlarında uçota durmadan sahibkarlıqla və “Fərqlənmə nişanı” almadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi məsələləri istisna olmaqla) ticarət, iaşə, xidmət və digər profilli obyektlər əhatə edilmiş və bunlardan 51588-də vergi qanunvericiliyinin pozulması halları aşkar edilmişdir. Nəzarətin nəticələri barədə qanunvericiliyə müvafiq qaydada 89389 akt və protokol tərtib edilərək 22,1 milyon manat məbləğində inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilmişdir. Qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində Tədbirlər Planında vergi orqanları | 2011-2015 |

| | | | |
|---|---|---|---|
| | | qarşısında qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə operativ nəzarət tədbirləri davam etdirilir. | |
| 4. | İnstitusional siyasət və səmərəli idarəetmə | | |
| 4.2. | Əks-mərkəzləşdirmə (bələdiyyələr və QHT-lər) | | |
| 4.2.1. | Bələdiyyələrin davamlı inkişafının təmin edilməsi | | |
| 4.2.1.2. | Yerli vergi və ödənişlərin toplanması sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müvafiq idarələri və bələdiyyələr arasında əməkdaşlığın genişləndirilməsi | 2014-cü ildə yerli vergilərin hesablanması və ödənilməsi qaydası və müddətləri, habelə digər aktual mövzularda bələdiyyələrin vergi xidməti orqanlarının əməkdaşları ilə 595 görüş keçirilmişdir.<br>Vergilər Nazirliyi tərəfindən bələdiyyələrdə elektron vergi uçotunun həyata keçirilməsini nəzərdə tutan “Bələdiyyə Vergi İnformasiya Sistemi” (BVİS) proqram təminatı hazırlanaraq tətbiqinə başlanılmışdır. Bu məqsədlə hazırda respublikanın 8 bələdiyyəsində, o cümlədən Bakı şəhərinin Binəqədi rayonunun 5 bələdiyyəsində, Abşeron rayonunun Saray, Sumqayıt şəhərinin Sumqayıt və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində Pilot layihələri həyata keçirilir. BVİS Proqram təminatının respublikanın digər bələdiyyələrində də həyata keçirilməsi nəzərdə tutulmuşdur. | 2011-2015 |